**Altıncı çağırış Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Humanitar siyasət komitəsinin iclasının**

**P R O T O K O L U № 1**

**Naxçıvan şəhəri** **24 aprel 2024-cü il**

24 aprel 2024-cü il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Humanitar siyasət komitəsinin iclası keçirilmişdir.

**Sədrlik edən:** -Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Humanitar siyasət komitəsinin sədri Elman Cəfərli

**Katib:** -Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Humanitar siyasət komitəsinin üzvü Vüsalə Əliyeva

**İclasda iştirak etdilər:**

1. Niftəliyev Hüseyn Əsrafil oğlu -Komitənin sədr müavini
2. Allahverdiyeva Həbibə Rəşad qızı -Komitənin üzvü
3. Babayev Əmir Baxşəli oğlu -Komitənin üzvü
4. Əliyev Asim Yediyar oğlu -Komitənin üzvü
5. Həsənova Turan Vaqif qızı -Komitənin üzvü
6. Məmmədov Ehtimad Cəfər oğlu -Komitənin üzvü
7. Möhbəliyev Telman Əli oğlu -Komitənin üzvü
8. Vəliyeva Günel Fəxrəddin qızı -Komitənin üzvü

**Dəvət olunanlar:**

1. Ramil Nəbiyev - Ali Məclis Aparatının Deputatlarla, komitələrlə və komissiyalarla iş şöbəsinin müdiri
2. Aləm Bağırov - Nazirlər Kabineti Aparatının rəhbəri
3. Sevinc Cabbarova - Nazirlər Kabineti Aparatının Humanitar və sosial məsələlər şöbəsinin müdiri
4. Əliheydər Qurbanlı - Ali Məclis Aparatının Deputatlarla, komitələrlə və komissiyalarla iş şöbəsinin müdir müavini
5. Elşən Yolçuyev - Ali Məclis Aparatının Protokol sektorunun müdiri
6. Rəmzi İbrahimov - Ali Məclis Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr sektorunun müdiri
7. Oruc Babayev - Ali Məclis Aparatının Deputatlarla, komitələrlə və komissiyalarla iş şöbəsinin böyük məsləhətçisi

8. Ovni Muradov - Naxçıvan Muxtar Respublikası Təhsil nazirinin müavini

9. Kamandar Ələkbərov - Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin sektor müdiri

10. Xavər Babayeva - Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin baş məsləhətçisi

**İclasın gündəliyi:**

**"Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2023-cü il üzrə fəaliyyəti haqqında hesabatı" barədə.**

İclası Komitənin sədri Elman Cəfərli açaraq bildirdi ki, iclasda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Humanitar siyasət komitəsinin 10 üzvü, həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının, Nazirlər Kabineti Aparatının, Təhsil, Səhiyyə və Mədəniyyət nazirliklərinin nümayəndələri iştirak edirlər.

Qeyd etdi ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 42.1-ci maddəsinə əsasən Ali Məclisin komitəsinin iclası onun üzvlərinin yarıdan çoxu iştirak etdiyindən səlahiyyətlidir.

Elman Cəfərli iclas iştirakçılarına gündəlikdə duran məsələ ilə bağlı məlumat verdi.

Komitə sədri bildirdi ki, Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 34-cü maddəsinin III hissəsinə və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 23.1-ci maddəsinə uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti hər il Ali Məclisin yaz sessiyasında Nazirlər Kabinetinin əvvəlki il üzrə fəaliyyəti haqqında hesabat verir. Daxili Nizamnamənin 23.2-ci maddəsinə uyğun olaraq Nazirlər Kabinetinin hesabatı Ali Məclisin iclasında baxılmamışdan əvvəl Ali Məclisin Humanitar siyasət komitəsinə rəy verilməsi üçün təqdim edilmişdir.

Elman Cəfərli Nazirlər Kabinetinin 2023-cü il üzrə hesabatının Ali Məclisin aid şöbəsi tərəfindən bütün deputatlara göndərildiyini və deputatların məlumatlı olduğunu bildirdi. Hesabat barədə məlumat verməsi üçün söz Nazirlər Kabineti Aparatının Humanitar və sosial məsələlər şöbəsinin müdiri Sevinc Cabbarovaya verildi.

**Çıxışda:** Sevinc Cabbarova bildirdi ki, ölkə başçısı tərəfindən muxtar respublikanın inkişafına yüksək qayğı göstərilir. Belə ki, ötən il ölkəmiz və muxtar respublikamız üçün uğurlu olmuş, mühüm hadisələrlə yadda qalmışdır. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı istiqamətində həyata keçirilən tədbirlər davam etdirilmiş, inkişafın keyfiyyətcə yeni mərhələsinə qədəm qoyulmuşdur.

Ötən dövrdə ölkəmizdə "Heydər Əliyev İli" elan edilmiş və Naxçıvan Muxtar Respublikasında sosial sahənin inkişafı istiqamətində həyata keçirilən tədbirlər 2023-cü ildə də uğurla davam etdirilmiş, inkişafın keyfiyyətcə yeni

mərhələsinə qədəm qoyulmuşdur. “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın qəbul olunması müstəqil Azərbaycanın siyasi və iqtisadi qüdrətinin daha bir göstəricisidir.

Bildirdi ki, Nazirlər Kabinetinin 2023-cü il üzrə fəaliyyəti haqqında hesabat hazırlanmışdır. Hesabatda “Təhsil”, “Mədəniyyət”, “Səhiyyə”, “Gənclər və idman”, “Ailə, qadın və uşaq problemləri”, “Dini qurumlarla iş”, “Arxiv işi” və s. başlıqları üzrə ətraflı məlumat verilmişdir.

**Çıxışda:** Deputat Hüseyn Niftəliyev qeyd etdi ki, “Səhiyyə və sosial siyasət” bölməsinin “Səhiyyə” alt bölməsində (səhifə 39) əksini tapmış bir fakta öz münasibətimi bildirmək istərdim. Həyata keçirilən səhiyyə tədbirlərindən biri kimi göstərilir (səhifə 37-38) ki, “Naxçıvan MR Yoluxucu Xəstəliklər Mərkəzində fəaliyyət göstərən QİÇS-lə mübarizə şöbəsinin bazasında, müalicənin əlçatanlığını və fasiləsiz təmin edilməsini nəzərə alaraq İİV-ə yoluxma hallarının azalması istiqamətində işlər aparmaq və QİÇS-ə yoluxmuş şəxslərin müalicəsini düzgün həyata keçirmək məqsədilə Naxçıvan Muxtar Respublikasının QİÇS-lə Mübarizə Mərkəzi yaradılmışdır”.

Daha sonra (səhifə 39) qeyd edilir ki, “Muxtar respublikada kardioloji xəstəliklərdən əziyyət çəkən əhali üçün səhiyyə xidmətinin gücləndirilməsi, ürək sağlamlığını qorumaq, ürək xəstəliklərini aşkar və müalicə etmək, ən son texnologiyalar ilə təchiz olunaraq, hərtərəfli diaqnostika və müalicə üsulları ilə xidmət göstərmək məqsədilə “Naxçıvan Muxtar Respublikası Kardioloji Mərkəzi” publik hüquqi şəxsi ləğv edilərək “Naxçıvan Muxtar Respublika Xəstəxanası” publik hüquqi şəxsə birləşdirilmişdir”.

Muxtar respublikada QİÇS xəstəliyi yayılmadığı halda o tərkibində olduğu xəstəxanadan ayrılırsa, ürək-damar xəstəliklərinin çox geniş yayıldığı bir dövrdə, yaxşı olmazdımı ki, elə Kardioloji Mərkəz ayrıca publik hüquqi şəxs kimi saxlanılsın və ayrıca binada öz fəaliyyətini davam etdirsin? Bu zərurət nədən irəli gəlib? Əgər izahatda göstərilən məqsəd əsasdırsa, o zaman bu məqsədə çatmaq üçün Kardioloji Mərkəzin ləğvinə ehtiyac yox idi.

**Çıxışda:** Deputat Əmir Babayev bildirdi ki, “Təhsil” bölməsində bu sahəyə 2023-cü ildə ayrılmış büdcə vəsaitinin necə xərcləndiyi barədə heç bir məlumat yoxdur. Tədbirlərin keçirilməsi ilə bağlı geniş hesabat olsa da, bu tədbirlərin hansı vəsait hesabına keçirildiyi bildirilmir.

Bundan başqa, şəhidlərin xatirələrinin əbədiləşdirilməsi istiqamətində muxtar respublikamızda bütün səviyyələrdən olan məktəblərdə şəhid adlarının ayrı-ayrı sinif otaqlarına verilməsi təcrübəsi genişlənməkdədir. Bu faktdan çıxış edərək sual vermək istəyirəm: Əgər nazirlik hesabatda 2023-cü ildə keçirdiyi bütün tədbirləri adbaad sadalayırsa, nə üçün hesabatda həmin fakt öz əksini tapmayıb? Ümumiyyətlə, şəhidlərin adlarının sinif otaqlarına verilməsi prosesi əlaqələndirilirmi, yoxsa bu proses pərakəndə baş verir?

Əlavə olaraq qeyd etdi ki, “Təhsil”, “Mədəniyyət”, “Səhiyyə”, “Gənclər və idman”, “Ailə, qadın, uşaq problemləri”, “Dini qurumlarla iş”, “Arxiv işi” alt bölmələrində də bu sahələrə 2023-cü ildə ayrılmış büdcə vəsaitinin necə xərcləndiyi, o cümlədən həyata keçirilən tədbirlərə yönəldilən vəsait barədə heç bir məlumat yoxdur.

**Çıxışda:** Deputat Asim Əliyev ifadə etdi ki, Təhsil Nazirliyinin, Mədəniyyət Nazirliyinin, Gənclər və İdman Nazirliyinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Dövlət Arxiv İdarəsinin 2023-cü il ərzində keçirdiyi bütün tədbirlərin bir-bir sadalanmasının, Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin iftar və ehsan süfrələri təşkil etməsinin, konstitusion səviyyədə dinin dövlətdən ayrı olduğu halda muxtar respublika sakinlərinin məhz öz vəsaitləri hesabına ayrı-ayrı dini mərkəzləri ziyarət və səfərlər etməsinin, Dövlət Arxiv İdarəsi əməkdaşlarının məqalələrinin adlarının, muxtar respublikadakı teatr və muzeylərin yubileyləri ilə bağlı araşdırmaların aparılmasının, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən Dövlət Arxiv İdarəsi üçün “gov.az” dövlət domenində elektron poçtların hazırlanmasının Ali Məclisdə nə kimi hesabatlılıq xarakteri vardır və necə müzakirə predmeti ola bilər?

**Çıxışda:** Deputat Həbibə Allahverdiyeva bildirdi ki, hamı tərəfindən Naxçıvan Muxtar Respublikasının tarixi, dini, səhiyyə və təbiət turizmi potensialının geniş olduğu bilinir və bu, mütəxəssislər tərəfindən də təsdiq olunur. Lakin təəssüf ki, indiyədək biz bu sahədə hansısa fundamental işlərin görüldüyü ilə bağlı nəticə verən işlərin görüldüyünə dair məlumatlara rast gəlmirik. “Turizm” bölməsində də bu sahədə görülən tədbirlər qaneedici deyil. Əvəzində 2 səhifədən də az hesabatın az qala yarısı 2023-cü il mayın 10-da keçirilən tədbirin təsvirinə və 1-2 yürüşə həsr olunmuşdur. Daha çox dağlara dırmanmanı əhatə edən qeyri-olimpiya idman növü kimi populyar olan alpinizmlə məşğul olan məhdud sayda alpinistlərin Qapıcıq dağına və Haçadağa yürüşünün Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin səlahiyyət dairəsi ilə nə əlaqəsi var? Naxçıvan şəhərində bir neçə turizm bürosunun fəaliyyət göstərdiyini bilirik. Turizm Departamentinin bu turizm büroları ilə əlaqələri nə səviyyədədir? Hansısa layihələr və ya birgə layihələr həyata keçirilibmi?

**Çıxışda:** Deputat Turan Həsənova bildirdi ki, “Təhsil” bölməsində (səhifə 30) belə bir cümlə işlədilir: “Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi tərəfindən 5 oktyabr-“Beynəlxalq Müəllimlər Günü” münasibətilə 13 təhsil işçisi “Əməkdar müəllim” fəxri adı ilə təltif olunublar”.

Əvvəla bu 13 təhsil işçisinin Azərbaycan Respublikasının, yaxud Naxçıvan Muxtar Respublikasının “Əməkdar müəllimi” fəxri adı ilə təltif edildiyinə aydınlıq gətirilmir. Digər tərəfdən Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndinə görə dövlət təltifləri ilə təltif etmək Azərbaycan Respublikasının Prezidentinə aiddir. Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndinə əsasən Naxçıvan MR-in fəxri adları ilə təltif etmək səlahiyyəti Naxçıvan Muxtar Respublikasının Ali vəzifəli şəxsinə mənsubdur. Yəni Təhsil Nazirliyinin hər iki halda “Əməkdar müəllim” fəxri adı ilə təltif etmək səlahiyyəti yoxdur.

**Çıxışda:** Ali Məclis Aparatının İqtisadi məsələlər şöbəsinin müdiri Nihad Möhbalıyev ilk dəfə olaraq Nazirlər Kabinetinin hesabatının Ali Məclisin komitələrində müzakirəsini müsbət hal kimi qiymətləndirib, bunu muxtar respublikada aparılan uğurlu sosial-iqtisadi islahatların, eyni zamanda qurumlar arasında idarəetmənin təkmilləşdirilməsinin nəticəsi kimi dəyərləndirdi.

Həmçinin təhsil, səhiyyə və digər sahələr üzrə həyata keçirilən tədbirlərə ayrılan vəsaitlərin, statistik göstəricilərin müqayisəli şəkildə hesabatda öz əksini tapmadığını qeyd etdi.

**Çıxışda:** Elman Cəfərli bildirdi ki, 2024-cü ilin 24 yanvar-1 aprel tarixləri arasında Azərbaycan Respublikasının Hesablama Palatası tərəfindən Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyində 2023-cü ildə nazirlik və tabeliyində olan qurumlar üzrə dövlət vəsaitinin və dövlət əmlakının istifadəsinin auditi aparılıb.

Bir neçə gün bundan öncə Azərbaycan Respublikası Hesablama Palatasının sədri Vüqar Gülməmmədov Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyində və digər qurumlarda aparılan audit yoxlamaları ilə bağlı mətbuata açıqlama verib. Hesablama Palatasının sədri açıqlamasında bildirib ki, Təhsil Nazirliyində aparılmış yoxlamanın nəticəsi vəziyyətin əvvəlki illərdən ciddi fərqlənmədiyini göstərir: Artıq ştatların, uşaqların sayının şişirdilməsi hallarının 2023-cü ildə də təkrarlandığını qeyd edib.

Deputat bildirdi ki, ötən ilin yayında şəhər məktəblərinin birində Nazirlər Kabineti əməkdaşlarının da iştirakı ilə monitorinq aparılaraq, siniflərin səhv komplektləşdirilməsi ilə bağlı məsələ həll olunmuşdu. İndi sualım bundan ibarətdir: Necə olub ki, bu problemin digər məktəblərdə də olduğu bilindiyi halda, həmin məktəblər monitorinqdən kənarda qala bilib? İkinci sualım isə belədir: Təhsil Nazirliyinin “Şərq qapısı” qəzetinə verdiyi məlumatda məhz siniflərin komplektləşdirilməsi zamanı təlimatın tələblərinə əməl olunmadığı bildirildiyi halda, niyə həmin qanunsuzluq aradan qaldırılmır? Mən bildiyimə görə, əgər siniflər düzgün, təlimata uyğun komplektləşdirilibsə, sonradan isə həmin siniflərin birində və ya bir neçəsində şagird sayında müxtəlif səbəbdən azalma baş veribsə, bu zaman komplektləşdirilmiş siniflər tədris ilinin sonunadək saxlanılır. Təlimat bəri başdan pozulubsa, pozuntu tədris ilinin ortasında da aradan qaldırıla bilər. Əks təqdirdə, bəllidir ki, bu zaman dövlət vəsaitindən qanunsuz istifadə ilboyu davam edəcək.

**Növbəti ikinci sualını Mədəniyyət Nazirliyinin nümayəndəsinə ünvanladı.** Qeyd etdi ki, “Mədəniyyət, turizm və televiziya” bölməsinin “Mədəniyyət” alt bölməsində (səhifə 58) göstərilir ki, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 10 may 2023-cü il tarixli Qərarı ilə Heydər Əliyev Muzeyinə, 2023-cü il 21 iyul tarixli Qərarı ilə Naxçıvan Dövlət Filarmoniyasına “muxtar respublika” statusu verilmişdir. Azərbaycan Respublikasının Prezidenti tərəfindən 2000-ci il martın 24-də imzalanmış “Muzeylər haqqında” Azərbaycan Respublikası Qanununun 9, 10 və 11-ci maddələrinə görə muzeylər öz statusuna görə üç səviyyədə təsbit olunub: milli statusa malik muzeylər, respublika əhəmiyyətli muzeylər, bələdiyyə mülkiyyətində və xüsusi mülkiyyətdə olan muzeylər.

Mənim sualım bundan ibarətdir: “Muzeylər haqqında” Azərbaycan Respublikası Qanununda təsbit olunmadığı halda, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Heydər Əliyev Muzeyinə hansı əsaslara görə “muxtar respublika” statusu vermişdir? Eynilə Naxçıvan Dövlət Filarmoniyasına?

Elman Cəfərli növbəti məsələ ilə bağlı bildirdi ki, "Səhiyyə" alt bölməsində (səhifə 40-41) ayrı-ayrı göstəricilər üzrə faktlar qarmaqarışıq şəkildə eyni abzasda sadalanır. Yaxşı olardı ki, həmin faktlar qruplaşdırılsın və ayrı-ayrı abzaslar şəklində təqdim olunsun. Ümumiyyətlə, bir-birinə aidiyyatı olmayan faktların eyni yerdə sadalanması faktına tez-tez rast gəlinir ("Sosial müdafiə" alt bölməsi, səhifə 42).

**Deputatların səsləndirdikləri fikirlərə, irad, təklif və suallara Nazirlər Kabinetinin Aparat rəhbəri Aləm Bağırov, Humanitar və sosial məsələlər şöbəsinin müdiri Sevinc Cabbarova, Təhsil, Səhiyyə və Mədəniyyət nazirliklərinin nümayəndələri münasibət bildirərək aydınlıq gətirdilər, irad və təkliflərin qeydiyyatı aparıldı.**

**Çıxışda:** Komitə sədri Elman Cəfərli bildirdi ki, komitə iclasında Nazirlər Kabinetinin hesabatı ilə bağlı aparılan müzakirələr faydalı oldu, hesabatla bağlı təklif və iradlar səsləndirildi.

Komitə üzvləri tərəfindən hesabatın "Təhsil", "Mədəniyyət", "Səhiyyə", "Gənclər və idman", "Ailə, qadın və uşaq problemləri", "Dini qurumlarla iş", "Arxiv işi" başlıqları üzrə əks olunmuş məlumatlarında müəyyən olunan irad və tövsiyələr Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının nümayəndələrinin diqqətinə çatdırıldı.

Qeyd etdi ki, Ali Məclisin Humanitar siyasət komitəsi "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitələri haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 6.1-ci maddəsinə əsasən Ali Məclisin komitəsi müzakirə etdiyi məsələlərə dair qərarlar və rəylər qəbul edir.

Sonda Elman Cəfərli altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Humanitar siyasət komitəsinin rəyini oxudu və "Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2023-cü ildə fəaliyyəti haqqında hesabatı" irad və təkliflər nəzərə alınmaqla Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müzakirəsinə tövsiyə edildi.

**İclasa sədrlik edən:** **E.Cəfərli**

**Katib:** **V.Əliyeva**